<table>
<tr><th>S/s</th><th>Tarix</th><th>Saat</th><th>Struktur bölmə</th><th>Məruzəçi(lər)</th><th>Məruzənin adı</th><th>Keçirildiyi yer</th></tr>
<tr><td>1</td><td>19.01.2021</td><td>10:00</td><td>Tətbiqi Riyaziyyat ETİ</td><td>Mütəllim Mütəllimov</td><td>Ayrılmayan sərhəd şərtli kəsilməz xətti-kvadratik optimal idarəetmə məsələsinin həlli üçün yeni qovma alqoritmi</td><td>Onlayn – Microsoft Teams</td></tr>
<tr><td colspan="7">Xülasə: Ayrılmayan sərhəd şərtli optimal idarəetmə məsələsinin həlli üçün qovma üsulu təklif edilir ki, onun da mahiyyəti sərhəd şərtlərinin başlangıc şərtinə gətirilməsindən ibarətdir. Eyler-Laqranj tənliklərinin müvafiq Hamilton matrisinin $J$ –simmetriklik xassəsindən istifadə edilməklə göstərilmişdir ki, həll olunan sistemin çatışmayan başlanğıc verilənlərinin tapılması üçün alınan xətti tənliklərin əmsalları simmetrik matris əmələ gətirir.</td></tr>
<tr><td>2</td><td>21.01.2021</td><td>11:00</td><td>Diferensial və inteqral tənliklər kafedrasının elmlər doktoru proqramı üzrə doktorantı</td><td>dosent, f.-r.e.n., Elvin Əzizbəyov</td><td>Uzununa yayılan dalğa tənliyi üçün öz-özünə qoşma olmayan sərhəd şərtli tərs məsələ</td><td>Onlayn – Microsoft Teams</td></tr>
<tr><td colspan="7">Xülasə: Tədqiqat işi düzbucaqlı oblastın daxili nöqtələrində baxılan uzununa yayılan dalğa tənliyinin müəyyən verilənlər daxilində naməlum əmsalının və sağ tərəfinin təyin olunması üçün qeyri-lokal başlanğıc və öz-özünə qoşma olmayan sərhəd şərtli tərs məsələnin klassik həllinin varlığı və yeganəliyinin öyrənilməsinə həsr olunmuşdur. Tədqiqat prosesi zamanı, qoyulan məsələ üçün klassik həllə tərif verilir, sonra baxılan məsələ müəyyən şərtlər daxilində ona ekvivalent olan köməkçi tərs sərhəd məsələlərlə əvəz olunur. Köməkçi tərs sərhəd məsələnin həlli Furye üsulunun köməyi ilə inteqral tənliklər sistemi şəklində yazılaraq sıxılmış inikas prinsipini tətbiq etməklə həllin varlığı və yeganəliyi göstərilir. Daha sonra, ekvivalent məsələ üçün isbat olunmuş faktlardan istifadə eməklə qoyulan məsələnin klassik həllinin də varlığı və yeganəliyi göstərilir.<br>Abstract: In the report, the speaker will talk about the theory of inverse boundary-value problems, classifications of inverse problems, and their applications. The presenter will give a formulation of an inverse boundary-value problem for the equation of longitudinal wave propagation with nonlocal initial and non-self-adjoint boundary conditions, and will also introduce the definition of the classical solution of the stated problem. Further, the original problem will reduced to an equivalent problem and existence and uniqueness of the solution to the equivalent problem will be shown using a contraction mappings principle. Finally, by the equivalency, the existence and uniqueness of classical solution will obtain.</td></tr>
<tr><td>3</td><td>22.01.2021</td><td>12:00</td><td>Fizika fakültəsi</td><td>Nanomaterialları m kimyəvi fizikas kafedrasının dissertantı Aydan Qəribli Adil qızı</td><td>Epitermal neytronların nano-silisiumda nüvələrdən səpilmə və radiasion tutmaları nəticəsində defektəmələgəlmə prosesləri</td><td>Onlayn – Microsoft Teams</td></tr>
<tr><td colspan="7">Xülasə: Neytronların təsiri altında əmələ gələn radioaktiv nüvələrin idenfikasiyası və parçalanma proseslərinin kinetikası tədqiq edilib, neytron aktivləşmə analizi üsulu ilə qarışıq nüvələrin qatılıqları təyin edilib. Neytronların təsiri altında baş verən proseslər nəticəsində yaranan defekt hallarının nano-Silisiumun elektrik keçiriciliyi,dielektrik nüfuzluğuna temperatur ve elektrik sahəsinin tezliyindən asılı olaraq təsiri qanunauyğunluqları aşkar olunub.Müəyyən olunub ki, neytronların təsiri altında nano-Si-da yaranan defektlər elektrik keçiriciliyi və dielektrik nüfuzluğunun artımına,elektrik keçiriciliyinin aktivləşnə enerjisinin azalmasına səbəb olur.</td></tr>
</table>

<table>
<tr><th>S/s</th><th>Tarix</th><th>Saat</th><th>Struktur bölmə</th><th>Məruzəçi(lər)</th><th>Məruzənin adı</th><th>Keçirildiyi yer</th></tr>
<tr><td>4</td><td>26.01.2021</td><td>12:00</td><td>Kitabxanaçılıq-informasiya fakültəsi</td><td>Biblioqrafiyaşünaslıq kafedrasının müdiri, dosent Nadir İsmayılov</td><td>Bibliqrafiyaşünaslığa dair müasir elmi konsepsiyalar</td><td>Onlayn – Microsoft Teams</td></tr>
<tr><td colspan="7">Xülasə: Qlobal informasiya mühitinin yaratdığı problemlər informasiya fəaliyyətinin istiqamətlərindən biri kimi biblioqrafiyaşünaslığa dair yeni yanaşmaların meydana gəlməsinə səbəb olmuşdur. Elmi məruzədə qarşıya qoyulan məqsəd biblioqrafiyaşünaslığa dair müasir elmi konsepsiyaları araşdırmaq, onların ümumi və xüsusi cəhətlərini şərh etmək və tədris prosesində bu dəyişiklikləri nəzərə almaqdan ibarətdir. Bu məqsədlə qərb və rus sahə elmi mühitinin bu aspektdə əldə etdiyi nailiyyətlərin təhlili əsasında mövcud konsepsiyaların ümumiləşdirilməsi nəzərdə tutulur.</td></tr>
<tr><td>5</td><td>26.01.2021</td><td>10:00</td><td>Tətbiqi Riyaziyyat ETİ</td><td>Quliyev Vaqif</td><td>Kəsilən əmsallı diverqent olmayan elliptik tənliyin həllərinin ümumiləşmişOrliç-Morri fəzalarında requlyarlığı</td><td>Onlayn – Microsoft Teams</td></tr>
<tr><td colspan="7">Xülasə: VMO əmsallı diverqent olmayan elliptik tənlik üçün qoyulmuş sərhəd məsələsinin həllərinin ümumiləşmiş Orliç-Morri fəzalarında requlyarlığı haqqındadır.</td></tr>
<tr><td>6</td><td>27.01.2021</td><td>11:00</td><td>Coğrafiya fakültəsi</td><td>GDU-nin baş müəllimi Sadiqov Təvəkkul Tofiq oğlu</td><td>Qarabağ-Mil düzü landşaftlarının eko-meliorativ qiymətləndirilməsi</td><td>Onlayn – Microsoft Teams</td></tr>
<tr><td colspan="7">Xülasə: Qarabağ və Mil düzlərinin kəskin transformasiya olunmuş müasir landşaftları uzun illər işğal altında olmuş Azərbaycan əraziləri ilə təmas sərhəddinə malik olduğu üçün ciddi şəkildə ekoloji təcavüzə məruz qalan ərazilərimizdən biridir.Burada su resursları ilə bağlı uzun illər problemlər yaşanmışdır.Məruzədə meliorativ qiymətləndirmədə təbii mühit kompanentlərindən ikisi: su resursları və iqlim xüsusiyyətləri daha əsaslı qiymətləndiriləcək. Digər resurslar- relyef, geoloji özül, hidrogeoloji şərait, torpaq, bitki örtüyü kimi mühit kompanentləri ümumi şəkildə şərh ediləcək.Məruzədə meliorativ kompanentlərin qiymətləndirilməsi regionun bütün ekocoğrafi xüsusiyyətləri ilə əlaqələndiriləcək, ekomeliorativ xüsusiyyətlərə aid kartoqrafik materiallar təqdim olunacaqdır.</td></tr>
<tr><td>7</td><td>27.01.2021</td><td>14:00</td><td>Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsi</td><td>Aytən Qurbanova</td><td>Cənubi Qafqazda təhlükəsizliyin təmin olunmasında Türkiyənin rolu</td><td>Onlayn – Microsoft Teams</td></tr>
<tr><td>8</td><td>27.01.2021</td><td>14:00</td><td>Nanoaraşdırmalar ETM</td><td>Mərkəzin kiçik elmi işçisi Lalə Qəhrəmanlı</td><td>SİLAR üsulu ilə əldə edilmilmiş CdxZn1-xS/PVS nanokompozitlərinin</td><td>Onlayn – Microsoft Teams</td></tr>
</table>

<table>
<tr><th>S/s</th><th>Tarix</th><th>Saat</th><th>Struktur bölmə</th><th>Məruzəçi(lər)</th><th>Məruzənin adı</th><th>Keçirildiyi yer</th></tr>
<tr><td></td><td></td><td></td><td></td><td></td><td>yetişmə və formalaşmasında temperaturun rolu”</td><td></td></tr>
<tr><td>9</td><td>27.01.2021</td><td>09:38</td><td>Kitabxanaçılıq-informasiya fakültəsin</td><td>Nadir İsmayılov</td><td>Biblioqrafiyaşünaslığa dair müasir elmi konsepsiyalar</td><td>Onlayn – Microsoft Teams</td></tr>
<tr><td>10</td><td>28.01.2021</td><td>10:30</td><td>Fizika problemləri ETİ ‚Kondensə olunmuş hal fizikası şöbəsi</td><td>aparıcı elmi işçi, fizika uzrə elmlər doktoru Nadir Abdullayev</td><td>$MnBi_2Te_4(Bi_2Te_3)_n$ n=0, 1, 2 sisteminə aid olan yeni maqnit topoloji izolyatorlar</td><td>Onlayn – Microsoft Teams</td></tr>
<tr><td colspan="7">Xülasə: $MnBi_2Te_4(Bi_2Te_3)_n$ n=0, 1, 2 sisteminə aid olan yeni maqnit topoloji izolyatorlar spintronika, aksion elektrodinamika, enerji itkisi olmayan elektronika və s. üçün perspektiv materiallardır. Məruzədə bu birləşmələrin geniş temperatur intervalında (1.4-300K) və maqnit sahələrində (0-8Tl) quruluşu, rentgen difraksiyası, raman səpilməsi, elektrik və galvanomaqnit xassələrinə (maqnit müqaviməti və anomal Holl effekti), maqnit xassələrinə (maqnitlənmə və maqnit nüfuzlugu) aid təcrübi nəticələr təqdim olunur.</td></tr>
<tr><td>11</td><td>02.02.2021</td><td>10:00</td><td>Tətbiqi Riyaziyyat ETİ</td><td>Sadıqov Misrəddin</td><td>Diferensial daxiloma üçün ekstremal məsələdə yüksək tərtibli dəqiq cərimə teoremləri</td><td>Onlayn – Microsoft Teams</td></tr>
<tr><td colspan="7">Xülasə: Diferensial daxilolmanın həllinin həyəcanlanmadan kəsilməz asılılıq teoremindən istifadə olunaraq diferensial daxilolma üçün yüksək tərtibli cərimə funksiyaları qurulur və onun köməyi ilə dəqiq cərimə teoremləri isbat olunur.</td></tr>
<tr><td>12</td><td>06.02.2021</td><td>14:00</td><td>Mülki hüquq</td><td>Mülki hüquq kafedrasının müdiri professor Məhəbbət Dəmirciyeva</td><td>Ər arvadın ümumi birgə mülkiyyətinin bölünməsi: Mülki hüquq və ailə hüququ</td><td>Onlayn – Microsoft Teams</td></tr>
<tr><td colspan="7">Xülasə: Son dövrlərdə ər və arvadın ümumi birgə mülkiyyətində olam əmlakın bölünməsində yaranan problemlər, rəsmi nigahın pozulmasından sonra övladın valideynlərin birinin himayəsində qalması və bunun nəticəsində ortaya cıxan ziddiyətlər barədə elmi müstəvidə müzakirə aparılacaq</td></tr>
<tr><td>13</td><td>10.02.2021</td><td>11:00</td><td>Coğrafiya fakültəsi</td><td>BDU-nun dissertantı Əmikişiyeva Nərmin Talıb qızı</td><td>Ərazinin mənimsənilməsi və təsərrüfatın ərazi təşkilində nəqliyyat sisteminin rolu</td><td>Onlayn – Microsoft Teams</td></tr>
</table>

| S/s | Tarix | Saat | Struktur bölmə | Məruzəçi(lər) | Məruzənin adı | Keçirildiyi yer |
|---|---|---|---|---|---|---|
| **Xülasə:** İnsanın məkanda fəaliyyəti nəticəsində müxtəlif istehsal və qeyri-istehsal infrastruktur obyektləri yaradılır və nəticədə bizim yaşadığımız ətraf mühitin mənzərəsi köklü şəkildə dəyişir. Baş verən dəyişiklərin gedişi bilavasitə ərazinin mənimsənilməsinin nə dərəcədə uğurlu olmasından asılıdır. Ərazinin mənimsənilməsi isə öz növbəsində nəqliyyat infrastrukturunun optimal təşkilindən asılıdır. Məruzədə nəqliyyat şəbəkəsinin formalaşmasına təsir edən amillərın açıqlanması və onun fəaliyyəti nəticəsində ərazinin "elastikliyi" (çevrikliyi) təhlil ediləcəkdir. Bununla yanaşı, məruzədə yaşayış yerləri və istehsal məntəqələri arasında yaranan nəqliyyat xəttlərinin sıxlığının dəyişməsinin təkamülü göstəriləcəkdir. Məruzədə nəqliyyat xəttlərinin marşrutlarının seçimində "İnkişaf gütblərinin" yerləşməsi və təsərrüfat sisteminin inkişaf istiqamətlərinin nəzərə alınmasının vacibliyi göstəriləcəkdir. İşğaldan azad olunmuş ərazilərdə nəqliyyat sisteminin yenidən qurulmasının vacib olduğunu nəzərə alaraq, məruzədə yol tikintisində əsas meyarlara dair konkret təkliflər veriləcəkdir. | | | | | | |
| 14 | 10 Fevral 2021-ci il | 14.00 | Mikrobiologiya və Virusologiya ET laboratoriyasının seminarı | Prof. Xudaverdi Qənbərov | Yeni yaradılmış " Mikrobiologiya və Virusologiya elmi- tədqiqat laboratoriyası"nın qarşısında duran əsas problemlər | Onlayn – Microsoft Teams |
| **Xülasə:** Məlumdur ki, canlılarda (insan, heyvan və bitkilərdə) yoluxucu xəstəliklər törədən mikroorqanizmlər, onlara qarşı mübarizədə istifadə olunan dərmanlara, ilk növbədə antibiotiklərə qarşı bir müddətdən sonra davamlılıq qazanırlar. Buna görə də yoluxucu xəstəliklər törədən mikroorqanizmlərə qarşı mübarizədə daim yeni dərman vasitələrinin axtarışı davam etdirilir. Bu məqsədlə Mikrobiologiya və Virusologiya ET laboratoriyasında patogen və şərti patogen bakteriyalara və göbələklərə qarşı yeni mübarizə vasitələrinin axtarışı aparılacaq. Yeni dərman vasitələri kimi BDU-nun Üzvi kimya kafedrasında, Sənaye kimyası elmi-tədqiqat laboratoriyasında və Nanoaraşdırmalar mərkəzində sintez olunan yeni üzvi və qeyri- üzvı maddələr istifadə olunacaq. | | | | | | |
| 15 | 11.02.2021 | 10:30 | Fizika problemleri ETİ, Biofizika şöbəsi | aparıcı elmı işçi, fizika uzrə elmlər doktoru Gülşən Ağayeva | Bioloji fəal peptid molekulların fəza quruluşlarının spektral və nəzəri hesablama metodları ilə kompleks tədqiqi | Onlayn – Microsoft Teams |
| **Xülasə:** Bioloji fəal peptid molekullarının fəza quruluşları və konformasiya imkanları müxtəlif tədqiqat üsulları vasitəsi ilə öyrənilmiş, alınmış nəticələr müqaisə və təhlil edilmişdur. Tədqiqatlar nəticəsində təcrübi və nəzərı üsullarla müəyyən edilmiş quruluş elementlərinin müqayisəsi onların qiymətlərinin dəqiqləşdirilməsinə səbəb olmuşdur. Tədqiq edilmiş biomolekulların fəza quruluşlarının və konformasiya imkanlarının müəyyən edilməsi onların quruluş-funksiya əlaqələrinin öyrənilməsi və yeni farmakoloji əhəmiyyətli analoqlarının yaradılması üçün vacibdir. | | | | | | |
| 16 | 11.02.2021 | 12.00 | Jurnalistika fakultəsi, Multimedia və elektron kommunikasiya kafedrası | Vüsal Məmmədzadə | Multimedia jurnalistikasına inteqrasiya dövründə xəbər agentliklərinin iş prinsipi ("Anadolu Agentliyi" nümunəsi) | Onlayn – Microsoft Teams |

| S/s | Tarix | Saat | Struktur bölmə | Məruzəçi(lər) | Məruzənin adı | Keçirildiyi yer |
|---|---|---|---|---|---|---|
| **Xülasə:** Multimedianın jurnalistikada fərqli formalarda təzahürü, kontent istehsalı və yayımı prosesində meydana gələn yeni forma və üslublar xəbər agentliklərinin də iş prinsipinə təsirsiz ötüşməyib. Bu gün xəbər agentlikləri öz fəaliyyətlərini müasir tendensiyalara uyğunlaşdırmağa çalışırlar. Bu prosesdə multimedianın ön plana çıxdığını görürük. Türkiyənin "Anadolu Agentliyi" də öz fəaliyyətində müasir tələbləri nəzərə alıb. Təqdim edilən məruzədə "Anadolu Agentliyi"nin multimedia jurnalistikasına inteqrasiya prosesində fəaliyyətini tənzimləmə formaları, yayım platformaları, xüsusilə, abunələr üçün nəzərdə tutulan HAS-da (Haber Akış Sistemi) yayımın həyata keçirilmə prinsipləri əksini tapıb. | | | | | | |
| 17 | 13.02.2021 | 14:00 | Biomühəndislik ET laboratoriyasının seminarı | Biomühəndislik ET laboratoriyasının əməkdaşları | Qida sənayesi tullantılarından punikalogin, likopen, resveratrol və tanninin alınması və bioloji sistemlərin davamlılığı və təhlükəsizliyinin yaradılmasında tətbiqi Qida sənayesi tullantılarından punikalogin, likopen, resveratrol və tanninin alınması və bioloji sistemlərin davamlılığı və təhlükəsizliyinin yaradılmasında tətbiqi | Onlayn – Microsoft Teams |
| 18 | 15.02.2021 | 14:00 | Əmək hüququ | Əmək və ekologiya hüququ kafedrasının professoru Mayis Əliyev | Cətin həyat şəraitində olan şəxslərin sosial müdafiəsinin problemləri: Müasir cağırışlar və perspektivlər | Onlayn – Microsoft Teams |
| **Xülasə:** Cətin həyat şəraitində olan şəxslərin sosial təminatının gücləndirilməsi istiamətində Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş dəyişikliklər barədə | | | | | | |
| 19 | 16.02.21 | 10:00 | Tətbiqi Riyaziyyat ETİ | Ahmet Ocak Akdemir | Atangana-Baleanu kəsr inteqral operatorları üçün yeni inteqral bərabərsizliklər | Onlayn – Microsoft Teams |
| 20 | 16.02.2021 | 14:00 | Kimya fakültəsi/ Üzvi kimya kafedrası | k.ü.e.d., professor Şıxaliyev Namiq Qürbət oğlu | Dihalogendiazadienlərin sintezi və onlardan üzvi sintezdə əlverişli sintonlar kimi istifadə edilməsi. | Onlayn – Microsoft Teams |

| S/s | Tarix | Saat | Struktur bölmə | Məruzəçi(lər) | Məruzənin adı | Keçirildiyi yer |
|---|---|---|---|---|---|---|

**Xülasə:** Katalitik olefinləşmə reaksiyası aldehid və ketonların N-əvəzolunmamış hidrazonlarının əsasi mühitdə, CuCl-in katalitik miqdarında, müxtəlif polihalogenalkanlarla reaksiyalarından müvafiq heminal dihalogen əvəzli olefinlərin sintezinə əsaslanır. Reaksiya əlavə məhsul olaraq azinlərin alınması və azotun ayrılması ilə müşahidə olunur.




$CHal_2XY$ $CCl_4$ , $CBr_4$ , $CHBr_3$ , $CFBr_3$ ,$CFCl_3$ , $CCl_3CF_3$ , $CF_3CBr_3$ , $CCl_3CN$ , $CCl_3O_2Et$

$B^-$ $NH_3$ , $Et_3N$ , $NH_2CH_2CH_2NH_2$

KOR-nın sintetik imkanlarını araşdırmaq məqsədi ilə sxem 1-də hidrazin hidrat fenilhidrazinlə əvəzlənmiş və standart şəraitdən (DMSO, ammonyak, 2% CuCl) fərqli olaraq əsas kimi ammonyakdan deyil tetrametiletillendiamindən TMEDA istifadə edilmişdir. Reaksiya məhsulunun analizi gözlənilən dixloralken əvəzinə dixlordiazabutadienlərin alınması ilə nəticələnmişdir. Başqa sözlə son olaraq karbonil qrupu C=O → -RN=N-RC=$CCl_2$ fraqmenti saxlayan heterodienə çevrilmişdir




Alınmış yeni nəticə bu reaksiyanın əvvəlki katalitik olefinləşmə reaksiyasından üstün cəhətlərə malik olduğunu göstərir. Belə ki, reaksiya məhsulunun tərkibində iki funksional reaksiya mərkəzlərinin, həm heminal dihalogen əvəzli ikiqat rabitənin, həm də azo qrupun olması (qoşulmuş dixlordiazabutadien) onların üzvi sintez baxımından nə qədər əhəmiyyətli sinton olduğunu göstərir.




Əlbətdə ki, bu birləşmələrin fizioloji aktivlik göstərmələrini və analitik kimyada azo birləşmələr kimi tətbiqini xüsusi ilə qeyd etmək lazımdır . Beləliklə, katalitik olefinləşmə reaksiyası şəraitində yeni bir sintetik istiqaməti aşkarlanmış və fenilhidrazonlar əsasında dixlordiazabuta-dinenlərin alınmasının əlverişli metodu işlənib hazırlanmışdır.

Sintez edilmiş müvafiq mono və bis dixlordiazadienlərdə heminal Cl atomları saxlayan C atomu elektrofil mərkəz rolunu oynayır. Məhz bu baxımdan onların müxtəlif nukleofil reagentlərlə reaksiyalarında yeni sinif fizioloji aktiv birləşmələrin sintezində istifadə edilə bilər. Bununla yanaşı dixlordiazabutadienlər polifunksional birləşmələr kimi zərif üzvi sintezdə müxtəlif heterotsikillərin (əsasən də 2H-1,2,3-triazol və piridazinin törəmələrinin), kompleks

| S/s | Tarix | Saat | Struktur bölmə | Məruzəçi(lər) | Məruzənin adı | Keçirildiyi yer |
|---|---|---|---|---|---|---|
| birləşmələrin, azo boyaların sintezində tətbiq edilə bilərlər ki, bu da dixlordiazabutadienləin sintezinin aktuallığını göstərir. | | | | | | |
| 21 | 17.02.2021 | 19:00 | Filalogiya fakültəsi,Azərbaycan dilçiliyi kafedrasının təşkilatçılığı ilə | Prof. T.M.Hacıyev | Ə.Abdullayev və Azərbaycan dili məsələləri | Onlayn – Microsoft Teams |
| **Xülasə:** Onlayn seminar Azərbaycan dilçiliyinin görkəmli nümayəndəsi, filologiya elmləri doktoru, Azərbaycan SSR Dövlət mükafatı laureatı, professor Əlövsət Zakir oğlu Abdullayevin 100 illik yubileyi münasibətilə keçiriləcək. Ə.Abdullayevin 50 illik pedaqoji fəaliyyətinin 40 ili Bakı Dövlət Universiteti ilə bağlı olmuşdir. 1962-1967-ci illərdə Azərbaycan Dövlət Universitetinin Filologiya fakültəsinin dekanı, 1972-1976-cı illərdə Universitetin prorektoru, 1967-1985-ci illərdə Filologiya fakültəsinin Azərbaycan dilçiliyi kafedrasının müdiri işləmişdir. Müasir Azərbaycan dilçiliyi sahəsində çalışan mütəxəssislərin böyük bir hissəsi onun yetirmələridir. Seminarda Ə.Abdullayevin elmi-pedaqoji fəaliyyəti haqqında məlumat veriləcək, görkəmli alimin elmi yaradıcılığının müxtəlif sahələri və tədqiqatları ilə bağlı araşdırmalar təqdim olunacaq. | | | | | | |
| 22 | 18.02.2021 | 11:00 | Mexanika-riyaziyyat fakültəsi, Riyazi analiz kafedrası | r.e.d., professor Ziyatxan S.Əliyev | Səthəd şərtlərinə spektral parametr daxil olan dördüncü tərtib bir sinif requlyar Şturm sistemlərinin məxsusi funksiyalarının bazislik xassələri və spektral ayrılışlarının müntəzəm yığılması | Onlayn – Microsoft Teams |
| **Xülasə:** Məruzədə bir ucu bərkidilmiş, digər ucunda inersial yük olan olan bircins Eyler-Bernulli çubuğunun əyilmə rəqslərini təsvir edən sərhəd şərtlərinə spektral parametr daxil olan dördüncü tərtib adi diferensial tənliklər üçün spektral məsələ təqdim olunur. Baxılan məsələnin köklü alt fəzalarının strukturu, məxsusi funksiyalarının və onların törəmələrinin osillyasiya xassələri, məxsusi ədədləri və məxsusi funksiyaları üçün dəqiqləşdirilmiş asimptotik düsturlar, məxsusi funksiyalarının altsistemlərinin bazislik xassələri və bu altsistemlər üzrə spektral ayrılışlarının müntəzəm yığılması haqqında məlumat veriləcəkdir.<br>**Abstract:** The report will present a spectral problem for ordinary differential equations of the fourth order with a spectral parameter in the boundary conditions, arising in the description of bending vibrations of a homogeneous rod, the left end of which is fixed, and at the right end is concentrated an inertial load. Information will be given on the structure of root subspaces, on the oscillatory properties of eigenfunctions and their derivatives, on refined asymptotic formulas for eigenvalues and eigenfunctions, on the basis properties of subsystems of eigenfunctions, and the uniform convergence of spectral expansions in these subsystems of the considered problem**.** | | | | | | |

<table>
<tr><th>S/s</th><th>Tarix</th><th>Saat</th><th>Struktur bölmə</th><th>Məruzəçi(lər)</th><th>Məruzənin adı</th><th>Keçirildiyi yer</th></tr>
<tr><td>23</td><td>18.02.2021</td><td>14:00</td><td>Tarix fakültəsi</td><td>Azərbaycan Respublikasının Milli Məclisinin deputatı, Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrasının müdiri, t.e.d., professor Anar İsgəndərov</td><td>Azərbaycan tarixşünaslığının inkişaf istiqamətləri</td><td>Onlayn – Microsoft Teams</td></tr>
<tr><td colspan="7">Xülasə: Azərbaycan tarixşünaslığının bünövrəsi Abbasqulu ağa Bakıxanovun “Gülüstani- İrəm” əsəri ilə qoyullmuşdur. Tarixin sonrakı məqamlarında müstəqil Azərbaycan xanlıqları, o cümlədən Qarabağ xanlığı ilə bağlı yazılan əsərlər tarixşünaslıq baxımında bir çox məsələlərə aydınlıq gətirir. Amma təssüf hissi ilə qeyd etmək lazımdır ki, sovet dönəmində Qarabağın Dağlıq Qarabağ Muxtar vilayətinə çevrilməsi erməni tarixçilərinə bu bölgənin tarixinin saxtalaşdırılmasına şərait yaratdı. Sovet rejiminin ermənilərə isti münasibəti və türk-müsəlmn əlahai ilə qeyri-səmimi rəftar erməniləri Qarabağı özününki etmək üçün çar Rusiyasının ədalətsiz siyasətini davam etdirirdi. 90-cı illərin əvvəllərində Azərbaycan dövlət müstəqilliyini yenidən bərpa etdikdən sonra Azərbaycan - Ermənistan münasibətlərində Qarabağ problemi yenidən gündəmə gəldi.Azərbaycan tarixçiləri ilk dəfə problemlə bağlı mövcud mənbələri dövriyyəyə cəlb etməyə nail odular.Problemin Azərbaycan, rus (həm çar Rusiyası, həm də sovet),erməni və qərb tarixşünaslığı real faktlsrla dünyaya çatdırıldı. 30 il ərzində Azərbaycan tarixçilərinin gərgin əməyi nəticəsində Dağlıq Qarabağın real tarixi dünyaya çatdırıldı. Bu gün hamıya gün kimi aydındır ki,Qarabağ Azərbaycanın tarixi torpağıdır. 44 günlük Vətən müharibəsi Azərbaycan xalqının qələbəsi ilə başa çatdı, Qarabağ düşməndən azad edildi. Elmi seminarda problemin tarixşünaslığı xronoloji ardıcıllıqla diqqətə çatdırılacaqdır</td></tr>
<tr><td>24</td><td>19.02.2021</td><td>12:00</td><td>Kitabxanaçılıq-informasiya fakültəsi</td><td>Kitabşünaslıq və nəşriyyat işi kafedrasının müdiri, dosent Knyaz Aslan</td><td>Nizami Gəncəvi və orta əsrlər Şərq kitab mədəniyyətinin mənzərəsi</td><td>Onlayn – Microsoft Teams</td></tr>
<tr><td colspan="7">Xülasə: Məruzədə Nizami Gəncəvinin orta əsrlərdə Azərbaycan, eləcə də Şərq əlyazma kitab mədəniyyətinə verdiyi əvəzsiz töhfələrdən, əlyazma kitabların hazırlanması ilə bağlı fikirlərindən bəhs olunur. Məruzə Prezident İlham Əliyevin 5 yanvar 2021-ci il tarixli "Azərbaycan Respublikasında 2021-ci ilin “Nizami Gəncəvi İli” elan edilməsi haqqında" Sərəncamında qarşıya qoyulmuş vəzifələrin həyata keçirilməsi baxımından da aktualdır.</td></tr>
<tr><td>25</td><td>19.02.2021</td><td>13:00</td><td>Sosial elmlər və psixologiya fakültəsi Fəlsəfə kafedrası</td><td>Professor Əziz Bəşir oğlu Məmmədov</td><td>Zadə məntiqinin Aristotelin Binar məntiqi ilə müqayisəsi və spesifik cəhətləri</td><td>Onlayn – Microsoft Teams</td></tr>
</table>

<table>
<tr><th>S/s</th><th>Tarix</th><th>Saat</th><th>Struktur bölmə</th><th>Məruzəçi(lər)</th><th>Məruzənin adı</th><th>Keçirildiyi yer</th></tr>
<tr><td colspan="7">Xülasə: Dünyanın mədəniyyət xəzinəsinə bir sıra elmi yeniliklər bəxş etmiş, özünün fundamental kəşfləri və heyrətləndirici ideyaları ilə müasirlərinə böyük təsir göstərmiş Lütfi Zadə yaradıcılığının mahiyyətini anlamaq və onun ictimai şüura verdiyi yeni impuls və istiqamətləri obyektivcəsinə dəyərləndirmək üçün hər şeydən əvvəl, bu kəşflərin real məzmunu ilə yanaşı fəlsəfi mahiyyətinə də varmaq, onları fəlsəfi təfəkkürün dili ilə səsləndirmək lazımdır. Müasir elmi dairələrdə böyük nüfuz qazanmış bu böyük alimin və mütəfəkkirin nəzəri təfəkkürü yeni rakursdan işıqlandıran və insan idrakının üfüqlərini Aristotelin ənənəvi, binar məntiqindən xeyli yüksəkliyə qaldıran qeyri-səlis məntiqi XX əsrin fundamental kəşflərindən biri kimi hazırda dünya alimləri tərəfindən heyranlıqla qarşılanmaqda və intensiv tədqiq edilməkdədir. L.Zadənin Qeyri-səlis çoxluqlar nəzəriyyəsinin məntiqi əsasını onun yaradıcılığından qırmızı xətlə keçən, Aristotelin binar məntiqindən fərqlənən Qeyri-səlis məntiq nəzəriyyəsi –fazzi məntiq təşkil edir. Ona görə də biz Qeyri-səlis məntiqi, Qeyri-səlis çoxluğun mühüm elementlərindən biri kimi təqdim edirik. Məlum olduğu kimi, bəşəriyyətin nəzəri fikir tarixində məntiqi təsəvvürlərin inkişafına başlanğıc vermiş Aristotelin klassik binar məntiqi öz məzmununa görə xətti, formal xarakter daşımış və məntiq anlayışlarının kəmiyyət dərəcələrinə toxunmadan onların yalnız keyfiyyət halını qəbul etmişdir. Dünyanı iki rəngli görən Aristotel məntiqinin bu xüsusiyyəti öz qabarıq ifadəsini onun ali prinsiplərindən sayılan “qeyri ziddiyyətlilik” ideyasında tapmışdır. Aristotel məntiqi dünyanı yalnız iki qütblü qəbul edən və bununla da onu dialektik ziddiyyətərdən kənarlaşdıran binar məntiqidir. L. Zadə məntiqindən fərqli olaraq burada üçüncünü istisna qanunu yerinə yetirilir. İnsan şüuru təfəkkürü müxtəlif metodlarla, sadə və mürəkkəb yanaşma üsulları ilə öyrənə bilir. Aristotel və L.Zadə məntiqlərinin də başlıca fərqi məhz bu metodun təfəkkür proseslərinə yanaşma üsulunun seçilməsidir. Aristotel məntiqi dünyanı sadə, L.Zadə məntiqi isə daha mürəkkəb metodla öyrənə bilər. Lütfi Zadə nəzəriyyələrinin əsas fəlsəfi mahiyyəti onların insan təfəkkürünü daha dürüst əks etdirməsindən və reallığa daha çox adekvat olmasından ibarətdir. Lütfi Zadə öz bacarığı, fəhmi, dərrakəsi ilə insan təfəkkürünün işləmə prinsiplərini və orada fəaliyyət göstərən obyektiv qanunauyğunluqları yaxşı başa düşdüyündən onların riyazi modellərini müvafiq simvollarla nisbətən daha adekvat şəkildə əks etdirə bilmişdir.</td></tr>
<tr><td>26</td><td>19.02.2021</td><td>14:00</td><td>Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsi</td><td>Eldar Cəfərov</td><td>Mədəni irsin qorunmasında beynəlxalq əməkdaşlıq (Qarabağ həqiqətləri)</td><td>Onlayn – Microsoft Teams</td></tr>
<tr><td>27</td><td>22.02.2021</td><td>12:00</td><td>“Kompleks geoloji və geofiziki tədqiqatlar” ETL-i</td><td>ETL-in Böyük elmi işçisi Mobili Robert Baqratoviç</td><td>İşğaldan azad olunmuş ərazilərdə Alban məbədlərinin saxtalaşdırılması, tikinti materialları və bağlayıcıların mineraloji-geokimyəvi tərkibi</td><td>Onlayn – Microsoft Teams</td></tr>
<tr><td colspan="7">Xülasə: İşğaldan azad olunmuş ərazilərdə həm islam, həm də xristian abidələrinin vəziyyəti dözülməz haldadır. Xüsusilə islam abidələri dağıdılıb, Alban abidələrinin isə bir hissəsi dağıdılıb, bir hissəsi erməniləşdirilib. Çar Rusiyasının erməniləri Qarabağda yerləşdirməsinin səbəbi oradakı alban kilsələrini, məbədlərini, mədəniyyətini, əlifbasını erməniləşdirmək idi. Azərbaycana 200 il əvvəl köçürülmüş ermənilər xalqımıza məxsus dini, tarixi-mədəniyyət abidələrini öz adlarına çıxmaq üçün hər cür saxtakarlığa əl atıb, buna bütün dövrlərdə aramsız cəhdlər göstəriblər. Kəlbəcərdəki Xudavəng monastırı da bu qəbildəndir. Xudavəng, Gəncəsar məbədləri həm tarixən, həm də memarlıq üslubu baxımından tamamilə Alban Apostol Kilsəsinə məxsusdur. Ermənilərin burada etdiyi saxtakarlıqlar monastırın giriş qapısındakı erməni xaçkarlarından və daxildəki bir çox müasir xaç elementlərindən aydın şəkildə görünür. Daşlarda (tikinti materialları və onun bağlayıcıları) elə informasiyalar var ki, onları silmək mümkün deyil, bunun üçün mineraloji-geokimyəvi əsaslandırılmaya böyük ehtiyac var.</td></tr>
</table>

| S/s | Tarix | Saat | Struktur bölmə | Məruzəçi(lər) | Məruzənin adı | Keçirildiyi yer |
|---|---|---|---|---|---|---|
| 28 | 22.02.2021 | 14.00 | Şərqşünaslıq fakültəsi | Akad.Rəfael Hüseynov | Nizami Gəncəvinin ötürücülük və qovuşduruculuq missiyası | Onlayn – Microsoft Teams |
| 29 | 23.02.21 | 10:00 | Tətbiqi Riyaziyyat ETİ | Sharifov Yaqub | Çoxnöqtəli sərhəd şərtli birinci tərtib qeyri-xətti impulsiv diferensial tənliklərin həllinin həllinin varlığı və yeganəliyi | Onlayn – Microsoft Teams |
| 30 | 24.02.2021 | 10:00 | Kitabxanaçılıq-informasiya fakültəsi | Knyaz Aslan | Nizami Gəncəvi ili | Onlayn – Microsoft Teams |
| **Xülasə:** Məruzədə çoxnöqtəli sərhəd şərtli birinci tərtib qeyri-xətti impulsiv diferensial tənliklərin həllinin həllinin varlığı və yeganəliyi məsələsi araşdırılmışdır. Verilən ilkin sərhəd məsələsi ona ekvivalent olan inteqral tənliyə gətirilmişdir. Həllin varlığı və yeganəliyi Banaxın sıxılmış inikas prinsipinə əsaslanmışdır. Həllin varlığı məsələsi isə Krasnoselskinin və Şauferin tərpənməz noqtə haqqındakı teoremlərə əsaslanmışdır. | | | | | | |
| 31 | 25.02.2021 | | Ekologiya və torpaqşünaslıq fakültəsi | Cəmil Quliyev | Ağır metallar və biogen elementlərin dənizdibi çöküntüləri - dib suları sistemində miqrasiya və mübadiləsinin kimyəvi və ekotoksikoloji qiymətləndirilməs | |
| 32 | 25.02.2021 | 10:30 | Kondensə olunmuş hal fizikası şöbəsi | aparıcı elmi işçi Vidadi Baqiyev | 4D- Elektron tomoqrafiyasi | Onlayn – Microsoft Teams |
| **Xülasə:** 4D-elektron tomoqrafiyasının yaranması və texniki şərtləri haqqında məlumat verilir.Bu texnoloqiya femtosaniyə zaman maştablarında nanölçülü obyektlərdə (o cümlədən atom və molekullarda) baş verən dəyişiklikləri üçölçülü, həcmi(3D) və canlı-zamandan asılı olaraq müşahidə etmək, yəni ki, nano və mikroaləmdə obyektlər və gedən proseslər haqda 4D tomoqrafik film çəkmək imkanı yaradır.Perspektiv tətbiq sahələri-Kimya, o cümlədən dinamik femtokimya-kimyəvi dəyişikliyin (reaksiyaların) getməsini atom və molekul səviyyəsində, femtosaniyə maştabında müşahidə etmək və öyrənmək;Nanoölçülü bioobyektlərin biokimyası;Tətbiqi və fundamental fizika (o cümlədən qəfəs rəqslərindən qısa zamanlarda baş verən hadisələr);Nanomateriallar, nanostrukturlar və nanoölçülü obtektlərin xüsusiyyətlərinin və onlarda baş verən hadisələrin dinamikasının öyrənilməsində yeni imkanlar yaradır. | | | | | | |
| 33 | 26.02.2021 | 14:00 | İnsan hüquqları, beynəlxalq hüquq | Hüquq fakültəsinin dekanı professor Əmir Əliyev | Xocalı soyqırımı : beynəlxalq hüquq müstəvisində | Onlayn – Microsoft Teams |
| 34 | 03.03.2021 | 12.00 | Filologiya fakültəsi | Aynurə Allahverdiyeva, Günay Mirzəyeva, | Nizami yaradıcılığında Novruz ənənələri | Onlayn – Microsoft Teams |

| S/s | Tarix | Saat | Struktur bölmə | Məruzəçi(lər) | Məruzənin adı | Keçirildiyi yer |
|---|---|---|---|---|---|---|
| | | | | Nərminə Xanəliyeva | | |
| 35 | 03.03.2021 | 12.00 | Geologiya fakültəsi | Robert Mobili | Qarabağdakı Alban məbədlərinin ermənilər tərəfindən saxtalaşdırılmasının tikinti materialları və bağlayıcıların mineraloji-geokimyəvi tərkibinə görə əsaslandırılması | Onlayn – Microsoft Teams |
| 36 | 04.03.2021 | 12.00 | Nanoaraşdırmalar ETM | Gülnaz Qəhrəmanova | Karbon nanoboruları və polimerlər əsasında keçirici kompozitlərin hazırlanması | Onlayn – Microsoft Teams |
| 38 | 09.03.2021 | 12.00 | Sosial elmlər və psixologiya fakültəsi | Fatma İsayeva | Kurikulum modelində dərsin şagirdlərin idrak fəallığının yüksəldilməsində rolu | Onlayn – Microsoft Teams |
| 39 | 10.03.2021 | 12.00 | Filologiya fakültəsi | Nigar Əliyeva, Nuranə Rüstəmli, Aytən Məhərrəmova, Bəsti Səttarova, Gülzar Əlləzova, Sevinc Qasımova, Məleykə Mirzəli, Elnarə İbrahimova, II kurs magistrantı Mətanət Abdinova | Müəllim, məni öz içimdə alicənab və nəcib insan yaratmağa ruhlandır | Onlayn – Microsoft Teams |
| 40 | 10.03.2021 | 12.00 | Şərqşünaslıq fakültəsi | Prof.Mehdi Kazımov | Nizami Gəncəvi və onun davamçıları | Onlayn – Microsoft Teams |

| S/s | Tarix | Saat | Struktur bölmə | Məruzəçi(lər) | Məruzənin adı | Keçirildiyi yer |
|---|---|---|---|---|---|---|
| 41 | 11.03.2021 | 12.00 | Əziz Məmmədov | Sosial elmlər və psixologiya fakültəsi | Lütfi Zadə məntiqinin Aristotelin binar məntiqi ilə müqayisəsi və spesifik cəhətləri | Onlayn – Microsoft Teams |
| 42 | 11.03.2021 | 12.00 | Beynəlxalq jurnalistika və informasiya siyasəti kafedrası | Tağıyeva Nurşərəf Mehdi | Media idarəçiliyində yeni çağırışlar | Onlayn – Microsoft Teams |
| 43 | 12.03.2021 | 12.00 | Fizika Problemləri Elmi-Tədqiqat İnstitutu | Şahin Bayramov | Biofiziki və biokimyəvi proseslərdə periodik və aperiodik rəqslərinin nəzəri kinetik tədqiqi | Onlayn – Microsoft Teams |
| 44 | 16.03.2021 | 12.00 | Kitabxanaçılıq-informasiya fakültəsi | Solmaz Sadıqova | Rəqəmsal mühitin biblioqrafik fəaliyyətin inkişafına təsiri | Onlayn – Microsoft Teams |
| 45 | 17.03.2021 | 12.00 | Tarix fakültəsi | Kəmalə Nəcəfova | Azərbaycan tarixinin aktual elmi problemləri, onların tədqiqi və tədrisi məsələləri | Onlayn – Microsoft Teams |
| 46 | 17.03.2021 | 11:00 | 2504.01 – Geodeziya ixtisası | Geodeziya və kartoqarfoya kafedrasının saathesabı müəllimi, qiyabi doktorant-Həsənov Əhməd Sərhəd oğlu | Xəzər dənizinin Azərbaycan sektorunda dəniz işlərinin geodezik təminatının aparılma xüsusiyyətləri | Onlayn – Microsoft Teams |
